# Təlimat

Hörmətli namizəd, Təsviri sənət üzrə qabiliyyət imtahanlarının nəticəsi ilə bağlı apellyasiya komissiyasına elektron ərizə ilə müraciətiniz üçün sizə təşəkkür edirik. Apellyasiya komissiyasına müraciət etməmişdən əvvəl abituriyentlər imtahan nəticələri, “tapşırıq çəkilmiş rəsm vərəqi”nin fotosurəti, yerinə yetirilən tapşırıq üzrə qiymətləndirmə meyarları və qiymətləndirmə şkalası ilə tanış olmalıdırlar.

Ötən imtahanların təcrübəsi göstərir ki, apellyasiya üçün ərizə yazanların əhəmiyyətli bir hissəsi **qiymətin yenidən araşdırılması ilə bağlı** komissiyaya müraciət etsələr də, ünsiyyət zamanı qiymətlərindən razı olduqlarını bildirir, komissiyadan mümkünsə bu və ya digər səbəblə əlaqədar onlara güzəşt etməyi xahiş edirlər. Abituriyentlərin nəzərinə çatdırırıq ki, bu tip müraciətlərə baxılmır. Elektron ərizədə müraciətin məzmunu qeyd olunmadığı halda ərizə qəbul edilmir, həmin müraciət araşdırılmır və onun üçün apellyasiya təşkil olunmur. Apellyasiya müzakirəsində abituriyentin iştirakı vacibdir. Abituriyent ilə yanaşı valideynlərindən biri müzakirədə iştirak edə bilər.

Sizin müraciətinizə “Zoom” proqramı və ya telefon əlaqəsi vasitəsilə baxılacaq. Bir namizədin müraciəti üzrə 10 dəqiqə müzakirə aparılması nəzərdə tutulmuşdur. Ayrılan vaxt bitdikdə, kənar şəxs müzakirəyə qoşulduqda və ya etik davranış qaydaları pozulduqda müzakirə prosesi dayandırılacaq. Namizədlərin görüşə təyin olunmuş vaxtdan 15 dəqiqə əvvəl qoşulması xahiş olunur. Görüşə qoşulmaqdan imtina edən namizədlər üçün ikinci dəfə komissiya yaradılması nəzərdə tutulmur. Qeyd edək ki, apellyasiya prosesinin qaydalara uyğun təşkilinə dair daxili nəzarəti həyata keçirmək məqsədilə namizədlərin komissiya üzvləri ilə görüşünün video yazısı aparılır.